*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 1* *ISSN 2663-4368*
*Səhifə: 79-85* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.1.79*

# Şəkər Aslanın poetik duyğularının tərənnümü

**Xalidə Rəhimova**
Lənkəran Dövlət Universiteti
E-mail: xalidavaqifqizi@mail.ru

**Annotasiya.** Şəkər Aslan (Şəkər Mirzə oğlu Aslanov) 1937-ci il oktyabrın 10-da Lənkəran rayonunun Boladi kəndində anadan olmuşdur. 1969-cu ildə Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunun poeziya fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə Lənkəran mədəniyyət evində başlamışdır. 1964-1968-ci illərdə "Leninçi" Lənkəran rayon qəzetində ədəbi işçi, 1968-1970-ci illərdə Azərbaycan KP Lənkəran komitəsində təlimatçı, 1970-1992-ci illərdə "Leninçi" (sonralar "Lənkəran") qəzetinin baş redaktoru vəzifələrində çalışmışdır. 1992-ci ildə "Söz" ədəbi-bədii jurnalını təsis etmişdir. 1994-1995-ci illərdə Azərbaycan Yazıçılar Birliyinin Lənkəran şöbəsinin sədri olmuşdur. "Sən kimsən, Ata?" (1982), "Birtərəfli hərəkət" (1987) pyesləri Lənkəran Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.
Azərbaycan Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanına (1981) və "Şərəf nişanı" ordeninə layiq görülmüşdür.
1995-ci il iyunun 12-də vəfat etmiş, doğulduğu Boladi kəndində torpağa tapşırılmışdır.
**Açar sözlər:** poetik duyğular, məhəbbət nəğməkarı, tərənnüm, motiv

**Məqalə tarixçəsi**: göndərilib – 15.04.2025; qəbul edilib – 29.04.2025

# Expression of poetic senses of Sheker Aslan

**Khalida Rahimova**
Lankaran State University
E-mail: xalidavaqifqizi@mail.ru

**Abstract.** Sheker Aslan (Aslanov Sheker Mirza) was born in Boladi village, Lankaran region on 10 October 1937. He graduated from the faculty of poetry of Maxim Gorky Literary Institute in Moscow in 1969. He started to his labor activity in Lankaran culture house. He worked in the positions of literary worker in "Leninchi" Lankaran region newspaper in 1964-1968, instructor in Azerbaijan CP Lankaran Committee in 1968-1970, editor-in-chief of "Leninchi" (later "Lankaran") newspaper in 1970-1992. He founded the literary and artistic journal of "Soz" in 1992. He was the chairman of Lankaran Department of the Union of Azerbaijani Writers in 1994-1995. His "Sen kimsen, Ata?" (1982), "Birterefli hereket" (1987) plays were performed at Lankaran State Drama Theater.
He was awarded to the Honorary Decree of the Presidium of the Supreme Soviet of Azerbaijan (1981) and the Order of the "Badge of Honor".
He died on 12 June 1995 and was buried in Boladi village where he was born.
**Key words:** poetic senses, love singer, expression, motive

**Article history:** received – 15.04.2025; accepted − 29.04.2025

## Giriş / *Introduction*

Şəkər Aslanın ədəbiyyat və mətbuat aləminə gəlişi "Sosialist subtropikası" Lənkəran rayon qəzetinin 23 iyul 1953-cü il tarixli sayında çıxan "Koreyalı bacıma" adlı şeiri ilə başlamışdır. Sağlığında Bakıda və Moskvada çap etdirdiyi şeir kitablarında vətənə məhəbbət, doğma təbiətin gözəllikləri, müasir insanların zəngin mənəvi dünyası, istək və arzuları, sevgiləri öz əksini tapmışdır. Şeirləri bir sıra xarici dillərə tərcümə olunmuş, publisistik məqalələrin, Lənkəran çayının tarixinə, xüsusiyyətlərinə həsr olunmuş "Samovara od salmışam" bədii-publisistik kitabın müəllifidir.

Lənkəranda yaşayan və belə demək mümkündürsə, paytaxt müəlliflərindən heç də az çap olunmayan Şəkər Aslanın imzası mətbuatda 1961-ci ildən daha tez-tez görünməyə başlamışdır.

## Əsas hissə / *Main Part*

Şəkər Aslanın ilk kitabı olan "Bahar yağışı" 1964-cü ildə xalq şairi Nəbi Xəzrinin redaktorluğu ilə "Şəkər Aslanov" imzası ilə Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən nəşr olunmuşdur.[1]

Kitaba gənc məllifin 1959-1963-cü illərdə yazdığı qırx lirik şeir daxil edilmişdir. Bu şeirlərin böyük əksəriyyəti doğma yurdun gözəlliklərinə həsr olunmuşdur ki, biz "Mənim şəhərim", "Azərbaycan", "Kənddə bahar", "Çay tarlası", "Viləş", "Lənkəran haqqında nəğmə" kimi əsərlərdə bunları aşkar şəkildə görə bilirik. Fikrimizin təsdiqi üçün 1961-ci ildə yazılmış cəmi doqquz misradan ibarət olan "Mənim şəhərim" şeirinə diqqət edək:

*Ömrüm boyu baxmışam,*
*Mən onun gül üzünə.*
*Heyranam axşamına,*
*Heyranam gündüzünə.*
*Burdadır ən gözəli*
*Bağçanın da, bağın da.*
*Lənkəran bir gözəldir*
*Bəzənir Xəzər adlı*
*Güzgünün qabağında*[2].

Şəkər Aslanın yaradıcılıq uğurlarının sirrini birinci növbədə onun öz doğma mövzularına yaxın olmasında axtarmaq lazımdır ki, biz bunu onun ilk şeirlər kitabına daxil etdiyi əksər əsərlərində görürük.

Yurda, doğma Vətənə bağlılıq, valideyn həsrəti, müəllimlərə hörmət və s. bu kimi mövzular Şəkər Aslanın yaradıcılığında xüsusi bir motiv kimi seçilir.

"Atam döyüşən yerdə", "Mənim müəllimlərim", "Bakı küləyi", "Yuxu", Meşəbəyi" və s. şeirlərdə hiss və həyacanlarını, duyğu və düşüncələrini çox məharətlə poetikləşdirməyi bacaran şair 1961-ci ildə Yaltada qələmə aldığı "Gözləyin məni" şeirində yazırdı:

*Mən öz kəndimizə "ana" demişəm,*
*Ürək sözlərimi ona demişəm.*
*Göyçək qızlarına "sona" demişəm,*
*Sonalar, sonalar, gözləyin məni.*

*Görün, nə genişdir yurdum, məskənim,*
*Günlərim çox yerdə keçəcək mənim.*
*Yenə bu yerlərə ömür yelkənim*
*Yan alar, yan alar, gözləyin məni.*

*Oxşayıb könlümü lalə, yasəmən,*
*Çıxmaz xatirimdən o məxmər çəmən.*
*Şəkərəm, bir şəkər balanızam mən,*
*Analar, analar, gözləyin məni*[3].

Şəkər Aslan bütün həyatı və yaradıcılığında cismən də, qəlbən də boya-başa çatdığı yerlərə – Lənkərana bağlı olmuş, "Bahar yağışı" kitabındakı şeirlərində olduğu kimi, "Ürəyimi açıram", "Sənə nəğmə deyirəm", "Məhəbbət fəsli" və digər kitablarında qəlbinin istəklərini, doğma yurduna olan məhəbbətini poetik dillə tərənnüm etmişdir.

---

[1] Aslanov Şəkər. Bahar yağışı. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1964, 56 səh.
[2] Yenə orada, s. 9
[3] Yenə da orada, s. 17

“Ürəyimi açıram” kitabını da şair “Şəkər Aslanov” imzası ilə nəşr etdirmişdir[1]. Kitaba daxil edilmiş “Sağlıq” adlı dörd misralıq ilk şeiri sülh nəğməsi, məhəbbət, sevgi, döyüşdə düşmənə qarşı güllə adlandıran şair “Özümü axtarıram” əsərində yazırdı:

*..Mən hələ bir arzuyam,*
*Mən yanan ürəklərə*
*Sərin su olmalıyam.*
*..Anam üçün Şəkərəm,*
*Böyük xalqımız üçün*
*Gərək şəkər olum mən*[2].

1965-ci ildə yazdığı bu şeiri ilə şairlik kredosunu elan edən Şəkər Aslan, doğrudan da, çox keçmədi ki, xalqının sevilən şirin-şəkər şairi oldu.

Şəkər Aslanın yaradıcılığının əvvəlki illərinə aid olan şeirlərində təbiət mövzularına daha çox yer verilmişdir ki, biz bunların əyani təsdiqini müəllifin “Yol”, “Yağışdan sonra”, “İstisu”, “Bulaq”, “Şəlalə”, “Qoruqda”, “Xəzərdə”, “Payız yağışı”, “Qızılı payız”, “Lerikdə” və s. şeirlərində görə bilirik.

Şəkər Aslan bir şair olaraq, hər şeydən əvvəl məhəbbət, gözəllik və gənclik nəğməkarıdır. Təsadüfi deyil ki, şair kitablarından birini “Məhəbbət fəsli” adlandırmışdır[3]. Bu kitaba daxil etdiyi şeirlərdə, əsasən, doğma torpağının, xüsusilə Lənkəranın təbii gözəlliklərini, gənclərimizin təmiz məhəbbətini, mənəvi keyfiyyətlərini, arzu və istəklərini səmimiyyətlə qələmə almışdır.

Məlum olduğu kimi, məhəbbətin tərənnümü bütün xalqların poeziyasının əzəli və əbədi mövzusu olmuşdur.

Şəkər Aslanın məhəbbət və gənclik mövzusunda yazdığı şeirlərdə birinci növbədə müasirlərimizin gözəl, təmiz, pak duyğuları qələmə alınmışdır. Şəkərin lirik qəhrəmanları olan fəhlə, kəndli və ziyalı gənclər nəcib hisslərlə yaşayan, sevgiyə ötəri, ani bir üfüq parıltısı kimi baxmayan, sevgi sayəsində ucalan, yenilməz, fədakar olan adamlardır:

*Gəz bizim dağların ətəklərini,*
*Bax, necə zirvələr çən-duman olur.*
*Dər bizim yerlərin çiçəklərini.*
*Duy, haçan təbiət al-əlvan olur.*
*Gör bizim qızların göyçəklərini:*
*Bil, niyə oğlanlar qəhrəman olur!*

Şəkər Aslanın tərənnüm etdiyi məhəbbət sədaqət və vəfa ilə yoğrulmuşdur. Təmiz sevgi, sədaqət, qarşılıqlı etiram əsasında qurulan gənc ailə gələcək nəslin daha kamil, daha gözəl, daha sağlam olacağına etibarlı təminat verir. “Analar” şeirində oxuyuruq:

*Yağar saçlarına illərin qarı,*
*Alnında qırışlar cığır, iz kimi.*
*Hər ana vəfanı, əzmi, vüqarı*
*Verər öz qızına bir cehiz kimi.*

Məhəbbətə baxışın, münasibətin zamanla uyarlığını, səsləşməsini qeyd etsək də, belə bir cəhəti də unutmaq olmaz ki, əsl məhəbbətin qayəsi bütün dövrlərdə yüksək olmuşdur. Şəkər Aslan bu cəhəti də nəzərdən qaçırmır. “Sənin kimi” şeirinə Füzulinin “Yarəb, bəlayi-eşq ilə qıl aşina məni” misrasını epiqraf seçən şair yazır:

*Nə qədər incitsən, incimərəm mən.*
*Duyaram sevginin böyüklüyünü.*
*Ana torpağımın bir gözəlindən*
*Necə əsirgəyim bu ömrü-günü?*

*Sənin adındımı dildə-ağızda?*
*Səsin gah kamanda, gah sazda olub.*
*Yəqin, Füzulinin sevdiyi qız da*
*Elə bu ədada, bu nazda olub!*

Gəncliyin şair tərəfdən qələmə alınan bu duyğuları, bu hissləri gözəldir, təqdir olunmağa layiqdir.

Şairin “Sevgi günü” poeması 23 yaşında həlak olmuş Vətən müharibəsi qəhrəmanı (II Dünya müharibəsi – X.R) həmyerlimiz B. O. Abbasovu ölməzliyə qovuşduran məhəbbətin qüdrətindən söz açır. Şəkərin məhəbbət və gənclik mövzusunda yazdığı şeirlərindəki fikirləri “Sevgi günü” poemasında daha bariz nümunəsini tapır.

---
[1] Aslanov Şəkər. Bahar yağışı. – Bakı: Azərbaycan Dövlət Nəşriyatı, 1964, 52 s.
[2] Yenə orada, s. 5
[3] Aslanov Şəkər. Məhəbbət fəsli. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1973, 84 səh.

*İlləri adlayıb ömürlərimiz...*
*Qəhrəman oğullar, gör, neçə mindir!..*
*Bununçun sevgiyə, məhəbbətə biz*
*Bəlkə də, yüz dəfə borcluyuq indi.*

*Görək nə deyəcək zamanın özü...*
*Zaman qoy biz deyən bir zaman olsun.*
*Axı sənin kimi bir qaragözü*
*Sevən oğlan, gərək, qəhrəman olsun!* [1]

Şair təbiəti, onun poetik lövhələrini, nadir ağaclarını, quşlarını ilhamla qələmə alır, adamları təbiəti sevməyə, onu qorumağa və zənginləşdirməyə çağırır. Şəkər Aslanın təbiət şeirlərinə müraciət etməklə fikrimizi əsaslandırmaq daha faydalı olar. “Yaşıllığı gətirin” şerində şair deyir:

*Nə yolda kölgə var, nə də həyətdə,*
*Yaşıllıq nə üçün bu qədər azdır?*
*Adamlar, adamlar, deyin bu kənddə*
*Necə duyursunuz: payızdır, yazdır?*

Lənkəran şairlərinin məşhur Dəmirağac sevgisi Şəkər Aslan qələmində də maraqlıdır:

*Süfrə açdıq, məclis qurduq*
*Dəmirağac kölgəsində.*
*Sağlıq dedik, badə vurduq*
*Dəmirağac kölgəsində.*

*Şirin gəldi tüstü bizə,*
*Bir gözəl çay süzdü bizə.*
*Nur töküldü üstümüzə*
*Dəmirağac kölgəsində.*

*Çox səs oldu, səmir oldu,*
*Xahiş oldu, əmr oldu.*
*Möhkəmlənib dəmir olduq*
*Dəmirağac kölgəsində.*

Şəkər Aslan yaradıcılığında əməyin, əməkçi insanın tərənnümü də aparıcı mövzudur. Onun şeirlərinin qəhrəmanları olan tərəvəzçilər, çaybecərənlər, balıqçılar, üzümçülər, gülbecərənlər və digər obrazlar düşünən, sevən, nifrət etməyi bacaran, əsrin havası ilə nəfəs alan, dünyanın, bəşəriyyətin taleyi üçün narahatlıq hissi keçirən adamlardır. Şair əməkçi insanların hər birinin ömründən poetik anları tapmağa, onu bədii səviyyəyə qaldırmağa, əbədiləşdirməyə çalışır və buna əksər hallarda nail olur. Müasirlərini dünyada iz qoymağa səsləyən şair “Günlərin qiyməti” şeirində yazır:

*Mənasız gün ki var, tüstüdür, hisdir –*
*Ötdü, kimsə ondan işıq görmədi.*
*Köçəndə deyərlər, elə xəsisdir,*
*Yaşadı, dünyaya heç nə vermədi.*

Şəkər Aslan sözün müxtəlif boya və çalarlarından istifadə etməyə, fikrini obrazlı deməyə, hər bir peşənin özünəməxsus detallarını tapmağa çalışır. “Balıqçı əlləri” şeirindəki kimi:

*Balıqçı qəlbində tər-təzə duyğu,*
*Üstündə Xəzərdən gələn ətirdir.*
*Onun əlindəki dəniz soyuğu*
*Mənim ürəyimə bir od gətirdi.*

“Gül bağında” şeirinə baxaq:

*Hər gül bir xalının zərif ilməsi,*
*Burda naxışları kim toxuyurdu?*
*Qızların dilində “salam” kəlməsi*
*Şehdə yuyulmuşdu, gül qoxuyurdu.*

Şəkər Aslanın “Səni sevdiyim gündən” kitabına lirik şeirləri və “Dəniz ömrü” poeması daxil edilmişdir[2].

Şairin kitabına daxil etdiyi lirik şeirlərində doğma diyarımızın təbii gözəlliklərindən, müasiri olduğu insanların yüksək mənəvi keyfiyyətlərindən, insanların təbiətə məhəbbət və qayğısından söhbət açılır.

Dörd bəndlik “Ölkəm” qoşmasında:

*Hər düzdə, hər döşdə keçə, xalı var,*
*Hər çiçək gözündə beçə balı var,*
*Bir bax təbiətin necə hałı var,*
*Günəşli, yağışlı, qarlıdır ölkəm!*[3],

deyən şair, “Lənkəranda” şeirində yazırdı:

[1] Aslan Şəkər. Sevgi günü. – Bakı: Gənclik, 1977, s.100

[2] Aslan Şəkər. Səni sevdiyim gündən. – Bakı: Gənclik, 1980, 120 səh.

[3] Yenə orada, s. 12

*Mən burda doğuldum, gətirdi baxtım,*
*Nağıllar həqiqət olur inandım.*
*Burda gözəllərin gözünə baxdım,*
*Gözümə, qəlbimə od düşüdü, yandım.*

*Sevdim şəhərimi, nə etmədim mən,*
*Qədim hasarları aşıb daşdı o.*
*Elə bil qəlbimin hərarətindən*
*Bir də gözəlləşdi, yaşıllaşdı o.*[1]

"Səni sevdiyim gündən", "Bizim bu sevgimiz damıb qəlbimə", "Bu gün bənövşəyə bənzədin gülüm", "Dünənimiz", "Səni hər görəndə" və s. şeirləri ilə məhəbbət nəğmələri oxuyan şair, məhəbbəti insanı daxilən saflaşdıran, əzabı da şirin olan bir nemət kimi tərənnüm edir, şeirlərinin birində yazır:

*Sənə inanıram qüdrətin çatar,*
*Çağır gəncliyimə qayıdım gəlim.*
*Hər sözün qəlbimdə sevgi oyadır,*
*Çağır qoy təzədən yanım, gözəlim.*

*Çağır qocalıqdan qurtarsın yaxam,*
*Görüm dünya necə əlvan bəzənmiş?*
*Çağırsan bir nəğmə oxuyacağam:*
*"Ey həyat, doğrudan, qəribəsənmiş!"*[2]

Sonetlər bir çox Lənkəran şairlərinin, xüsusilə Şəkər Aslanın da yaradıcılığında mühüm yer tutur. Şairin "Azərbaycan" və "Ömrün yayında" sonetlər çələngi dediklərimizə əyani sübutdur.

*Sənin çiçəklərin ətir saçırsa,*
*Sənin üfüqlərin od-alov saçırsa,*
*Zirvədə qartallar qanad açırsa,*
*Düzlərdə ceyranlar baş alıb qaçır.*

*Öpüm bulaqların büllur gözündən,*
*Büllur duyğularla çağlayım, coşum.*
*Şirin nağılları dinləyərək mən,*
*Sənə şirin-şirin nəğmələr qoşum.*

*Əbədi beşiyi qəhrəmanların.*
*Xoşbəxt saatların, xoşbəxt anların*
*Qalır ömrümüzdə, taleyimizdə.*
*Müqəddəs sevgisən, ürəyim, canım,*
*Səninçin yanaram Azərbaycanım*
*Səmada, torpaqda, dağda, dənizdə...*[3]-

bəndləri ilə tamalanan birinci sonetlər çələngində Azərbaycanın gözəlliklərini, fədakar övladlarını tərənnüm edən şair, ikinci sonetlər çələngində insan, onun ömür yolu, cəmiyyətdəki rolu barədəki fikirlərini oxucuları ilə bölüşür.

Şairin "Dəniz ömrü" poemasında yaxından tanıdığı qoca balıqçının düşüncələri, onun dənizdə keçən zəhmət dolu günləri təsvir olunur, balıqçıların çətin və şərəfli əməyi öz bədii əksini tapır.

Yuxarıda qeyd etdiyimiz kimi, Şəkər Asalan gözəllik və məhəbbət nəğməkarıdır. O, eyni zamanda şeirlərində bəşəri problemlərə də yer ayıran, insanları sülh, əmin-amanlıq və s. problemlər barədə də düşünməyə çağıran mütəfəkkir şairdir. Bu məsələlər onun "Döy mənim qapımı" şeirlər və poemalar kitabında[4] toplanmış əsərlərinin də başlıca mövzularındandır.

*İnsanlar, dayanaq, düşünək bu gün,*
*Kimsə susdurmasın haqqın səsini.*
*Doğma anamızı qorumaq üçün,*
*Qoruyaq anamız Yer kürəsini!*[5]-

deyən şair "Bir qələbə günü", "Bu dünyanı sevə-sevə", "Təbriz", "Qoruyaq anaları", "Qoruya bilmədik dostlarımızı", "Vaxtında edilməmiş yaxşılıq" və s. şeirlərində təqdim etdiyi problemlərlə bağlı düşüncələrini oxucuları ilə bölüşür və "Kimlər gəlir, kimlər gedir" adlı şeirində insanları dünya işlərinin gedişatından ibrət götürməyə çağıraraq yazır:

*Hər kəsin işidir ən böyük sözü,*
*O kimdir, nəçidir, öz işi deyir.*
*İnsanı böyüdən dünyanın özü*
*Kimdən zərər görür, kimdənsə xeyir.*

*Çox dolur, boşalır bu yer kürəmiz,*
*Adları gah yazır, gah da silirik.*
*Kimin gəldiyini bilməsək də biz,*
*Kimin getdiyini yaxşı bilirik.*

[1] Aslan Şəkər. Səni sevdiyim gündən. – Bakı: Gənclik, 1980, s.31
[2] Yenə orada, s. 59
[3] Yenə orada, s. 92
[4] Aslan Şəkər. Döy mənim qapımı. – Bakı: Yazıçı, 1986, 135 səh.
[5] Yenə orada, s. 13

Müharibə mövzusu Şəkər Aslanın şeirlərində olduğu kimi, poemalarında da mühüm yer tutur. Şairin "Unutmarıq" və "Qızılgül nəğməsi" poemaları bu mövzuda yazılmış, hər iki poema 1941-1945-ci illərdə müharibədə həlak olmuş qəhrəmanlara həsr edilmişdir. Birinci poemada müharibədə oğul itirmiş, lakin hələ də ümidlərini üzməyən anaların obrazlarını yaradan şair, ikinci poemasını Lənkəran torpağının cəngavər övladlarından biri, cəmi 23 il ömür sürən və şəhidlik zirvəsinə ucalan Sovet İttifaqı Qəhrəmanı Baloğlan Abbasova ithaf etmiş, onun ömrünün bəzi məqamlarını poetikləşdirmişdir.

*Baloğlan Abbasov... cəsarət, hünər,*
*Gülləydi, mərmiydi nifrəti, kini!*
*O, qızıl qanıyla yazdı bir səhər*
*Bu ana torpağa məhəbbətini,-*

misraları ilə başlanan "Qızılgül nəğməsi" poemasını Baloğlan Abbasova ucaldılmış əbədi söz abidəsi adlandırsaq, zənnimizcə, səhv etmiş olmarıq.

Jurnalist, publisist, Şəkər Aslanın irsinin davamçısı və qoruyucusu, "Söz" jurnalının redaktoru Sevda Əlibəyli yazır:

"...Şəkər müəllim dünyaya çox şey verdi. Xüsusilə Lənkəran adlı diyar üçün çox iş gördü. Başqaları kimi paytaxtda yaşamağa can atmadı. Lənkəranda yaşaya-yaşaya onu şöhrətləndirdi. Onun nəzərində günəş də Lənkəranda doğur, Lənkəranda gecələyirdi. Lənkəranda heç zaman olmayan bir oxucu Şəkər Aslan şeirlərini oxuyub, bu cənub şəhərə vurulurdu. Sevimli xalq şairi Məmməd Araz onun haqqında yazdığı "Sən bölgə şairi deyilsən, ölkə şairisən!" sözləri bu gün dillər əzbəridir".[2]

Şair İltifat Saleh Şəkər Aslanın Lənkəran ədəbi mühitindəki mövqeyindən bəhs edərkən belə deyir: "Şəkər Aslan Lənkəranda ədəbi prosesin önündə getmişdir. Onu gözəl bir şair kimi bütün Azərbaycan tanıyırdı. Şəkər Aslanın bir şair və insan kimi keyfiyyətləri barədə yüksək fikirlər səsləndirən müəllif onun haqqında düşüncələrini belə yekunlaşdırır: "Şəkər haqqında qısaca söz desəm, fikrimi belə ifadə edə bilərəm: Azərbaycanın "cənub mirvarisi" adlandırılan Lənkəranı bir poetik obraz kimi Şəkər aslanın şeirlərində görə bilərsiniz".[3]

## Nəticə / *Conclusion*

Şəkər Aslanın 60-90-cı illər yaradıcılığı haqqında fikirlərimizi ümumiləşdirərkən belə bir qənaətə gələ bilərik ki, yaşadığı illərin bir çox hadisə və problemlərinin poetik mənzərəsini yaratmaq ona nəsib olmuş və şübhəsiz ki, bunlar sözü gedən 60-90-cı illər Lənkəran ədəbi mühitinin formalaşması və yüksəlişinə öz müsbət təsirini göstərmişdir.

## Ədəbiyyat / *References*


1. Aslanov Şəkər. Bahar yağışı. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1964, 56 səh.[2]
2. Aslanov Şəkər. Ürəyimi açıram. – Bakı: GəncliкƏ 1967, 52 səh.
3. Aslanov Şəkər. Məhəbbət fəsli. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1973, 84 səh.[3]
4. Aslanov Şəkər. Sevgi günü. – Bakı: Gənclik, 1977, s.100
5. Aslan Şəkər. Səni sevdiyim gündən. – Bakı: Gənclik,1980, 120 səh.
6. Aslan Şəkər. Döy mənim qapımı. – Bakı: Yazıçı, 1986, 135 səh.
7. Yusifli Vaqif. Şair ömrü. – Bakı: "Əbilov, Zeynalov və oğulları", 2007, s. 58, 144 səh.
8. Əlibəyli Sevda. 525-ci qəzet. 2020, s.7


[1]Aslan Şəkər. Döy mənim qapımı. – Bakı: Yazıçı, 1986, s. 59
[2] Sevda Əlibəyli. 525-ci qəzet, 2020, s.7
[3] Yusifli Vaqif . Şair ömrü. İltifat Saleh. – Bakı: "Əbilov, Zeynalov və oğulları", 2007, s.57, 144 səh.

# Воспевание поэтических чувств Шякара Аслана

**Халида Рустамова Бардали**
Ленкоранский Государственный Университет
E-mail: xalidavaqifqizi@mail.ru

**Резюме.** Шякар Аслан (Шякар Мирза оглы Асланов) родился 10 октября 1937 года в селе Болади Ленкоранского района. В 1969 году окончил факультет Поэзии Литературного института имени Максима Горького в Москве. Трудовую деятельность начал в Ленкоранском доме культуры. В 1964-1968 году работал литературным работником в газете "Ленинчи" Ленкоранского района, в 1968-1970 годах - инструктором в Ленкоранском комитете КП Азербайджана, в 1970-1992 году - главным редактором газеты "Ленинчи" (позже "Ленкоран"). В 1992 году основал литературно-художественный журнал "Слово". В 1994-1995 году он был председателем Ленкоранского отделения Союза писателей Азербайджана. Пьесы под названием "Кто ты, Отец?" (1982), "Одностороннее движение" (1987) были поставлены в Ленкоранском государственном драматическом театре.
Награжден Почетной Грамотой Президиума Верховного Совета Азербайджана (1981 г.) и Орденом "Знак Почета".
Умер 12 июня 1995 года и был предан земле в селе Болади, где родился.
**Ключевые слова:** поэтические чувства, певец любви, пение, мотив